Azərbaycan.- 2020.- 23 dekabr. S. 1; 2.

## Milli Məclisin iclasında

# Gələn ilin dövlət büdcəsi zərfi parlamentə təqdim olunub

Dekabrın 22-də Milli Məclisin növbəti plenar iclası keçirildi. Parlamentin sədri Sahibə Qafarova iclası açıq elan etdikdən sonra komitə sədrləri Zahid Oruc, Siyavuş Novruzov, deputatlardan Razi Nurullayev, Fazil Mustafa, Əziz Ələkbərov, Sahib Alıyev, Əli Məsimli bir sıra məsələlərlə bağlı fikirlərini bildirdilər.

Çıxışlarda 44 günlük Vətən müharibəsi günlərində olduğu kimi, bundan sonra da milli birliyin qorunmasının vacibliyi vurğulandı, qələbədən sonra aparılacaq bərpa-quruculuq işlərinə dair təkliflər səsləndirildi. O cümlədən informasiya müharibəsində ölkə KİV-nin fəal iştirakı müsbət qiymətləndirildi, sovet illərində indiki Ermənistan ərazisindəki dədə-baba yurdlarından deportasiya olunan soydaşlarımızın hüquqlarının müdafiəsinin tələb olunmasının vacibliyinə toxunuldu, koronavirusla bağlı dinləmələrin təşkili və digər məsələlərdən söz açıldı.

Sonra gündəlikdəki məsələrin müzakirəsi başladı.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim etdi. Bildirdi ki, qanun layihəsində təklif olunan dəyişiklik kommersiya təşkilatlarında, xüsusilə də kiçik və orta sahibkarlıq subyektlərində mühasibat uçotu aparılmasının təkmilləşdirilməsini nəzərdə tutur. Məlumat dinlənildikdən sonra deputatlar qanun layihəsini üçüncü oxunuşda təsdiqlədilər.

*Ardı 2-ci səh.*

# Gələn ilin dövlət büdcəsi zərfi parlamentə təqdim olunub





Əvvəli 1-ci səh.

Tahir Mirkişili bir-biri ilə əlaqəli olan "Şərti maliyyə vahidi haqqında" Azərbaycan Respublikası Qanununun ləğv edilməsi barədə və "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında", "Korrupsiyaya qarşı mübarizə haqqında", "Banklar haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihələrini də diqqətə çatdırdı. Qeyd etdi ki, 2001-ci il yanvarın 1-dək Azərbaycanda dövlət rüsumlarının, birdəfəlik rüsumların, cərimələrin, maliyyə sanksiyalarının, digər ödənişlərin hesablanmasında aylıq əməkhaqqının minimum məbləğindən istifadə olunub. 2000-ci ilin 26 dekabrında "Şərti maliyyə vahidi haqqında" qanun qəbul edilib. 2008-ci ildən etibarən ölkəmizdə maliyyə sabitliyi olduğundan şərti maliyyə vahidi məbləği mütləq rəqəmlərlə əvəz edilib və Azərbaycan Respublikasının müvafiq məcəllələrində, qanunlarında, digər qanunvericilik aktlarında mütəmadi olaraq dəyişikliklər edilərək şərti maliyyə vahidi anlayışının istifadəsinin dayandırılması istiqamətində tədbirlər görülüb. Hazırda "Şərti maliyyə vahidi haqqında" qanuna ehtiyac qalmadığı üçün bu qanun ləğv edilir.

Həmçinin şərti maliyyə vahidi anlayışına istinad edilən beş qanundan - "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında", "Korrupsiyaya qarşı mübarizə haqqında", "Banklar haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" qanunlardan və Mülki Məcəllədən həmin ifadələr çıxarılır. Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq qəbul edildi.

İclasda Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında" Əsasnaməyə" dəyişiklik edilməsi barədə qanun layihəsi də ikinci oxunuşda müzakirəyə çıxarıldı. Bildirildi ki, birinci oxunuş zamanı ortaya çıxan suallar cavablandırılıb və deputatlar tərəfindən layihə ilə bağlı əlavə təklif irəli sürülməyib. Qanun layihəsi ikinci oxunuşda təsdiq edildi.

İclasda son olaraq "Azərbaycan Respublikası Fövqəlade Hallar Nazirliyinin 15 illiyi (2005-2020)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda müzakirə edildi. Layihə barədə məlumat verən Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli dedi ki, müharibə şəraiti dövründə, dağıntıların aradan qaldırılmasında, o cümlədən Gəncə şəhərində, Tərtərdə, Bərdədə və digər yerlərdə dağıntıların aradan qaldırılmasında Fövqəladə Hallar Nazirliyinin əməkdaşları fədakarlıq nümayiş etdiriblər. FHN-in yaradılmasının 15 illiyinə həsr olunan bu medalda milli atributlar da nəzərə alınıb. Bu medalın təsis olunması Azərbaycanın orden və medallarına yeni bir töhfə olacaq.

Müzakirələr zamanı yubiley medalının təsis edilməsi təqdirəlayiq hal kimi dəyərləndirildi. Qanun layihəsi birinci oxunuşda qəbul olundu.

Plenar iclasa yekun vuran Milli Məclisin sədri Sahibə Qafarova nəzərə çatdırdı ki, dekabrın 21-də 2021-ci ilin Azərbaycan Respublikasının dövlət büdcəsinə dair qanun layihələri, büdcə zərfi parlamentə daxil olub və deputatlara paylanılıb. Qanun layihələri komitələrdə müzakirə ediləcək.

**Rəşad CƏFƏRLİ,**
**"Azərbaycan"**